Azərbaycan Arxeologiyası Cild 22 № 2 2019. 30-39
Xəzər Universiteti Nəşriyyatı 2019 DOI: 10.5782\ 2218-0346.2019.22.2.30

# Naxçıvanın Tunc dövrü dulusçuluq sənəti

**Toğrul Xəlilov**
AMEA Naxçıvan Bölməsi
x.toqrul@gmail.com

**Açar sözlər:** Naxçıvan, Erkən Tunc dövrü, Orta Tunc dövrü, dulusçuluq

Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da dulusçuluğun tarixi qədimdir. Bu sənətkarlıq sahəsinin tarixi Neolit dövründən (e.ə. VII minillikdən) başlayır və bu gün də öz inkişafını daha təkmil formada davam etdirir. Tunc dövründə cəmiyyət həyatında baş verən sosial-iqtisadi dəyişikliklər bütün sahələrdə olduğu kimi dulusçuluğun inkişafına da təsir göstərmişdi. Keramikanın bişirilmə üsulları təkmilləşmiş, müxtəlif formalı dulusçu məhsulları meydana gəlmişdi.

Dulusçuluq tədricən dövrün tələblərinə uyğun olaraq ev sənəti çərçivəsindən kənara çıxmış, ixtisaslaşmış istehsal sahəsinə çevrilmişdi. Tunc dövrünün keramika məmulatı Neolit və Eneolit dövrlərinin dulusçuluq məhsullarından formasına, tipinə, ornamentlərinə, hazırlanma texnologiyasına və keyfiyyətinə görə fərqlənir. Bu dövrdə dulus çarxından istifadə olunması dulusçuluğun inkişafına mühüm təsir göstərmiş, onun yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdu. Qablar simmetrik formalaşdırılmış, keyfiyyətli bişirilmiş və anqobla örtülmüşdü. Qabların bişirilməsi, pardaqlanması, şüyrələnməsi (hamarlanması), bəzədilməsi kimi texnoloji proseslərin yeni sirlərinə bələd olan dulusçular o dövr üçün unikal sənət nümunələri yaratmışdılar. Qalın divarlı qablarla yanaşı, nazik divarlı, yaxşı cilalanmış qablar da hazırlanırdı. Dulusçuluq məhsulları gildən düzəldilmiş ocaqlardan, manqallardan, heyvan, təkər fiqurlarından və böyük əksəriyyəti gil qablardan ibarətdir. Onların hər biri özünəməxsus xüsusiyyətə malikdir.

Ocaq qurğuları Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrindən (Ovçulartəpəsi, Maxta, I Kültəpə və s.) bütöv və fraqmentlər şəklində əldə olunmuşdur. Onlar iri və ya xırda qum qarışığı olan gildən nalşəkilli və düzbucaqlı formada düzəldilmişdir. Onların bir qrupu sadədir. Bəzilərinin arxa hissəsində yarımşar şəkilli qulp və ya çıxıntı olmuşdur. Manqallar dairəvi formada hazırlanırdı. Onların təyinatı haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Əldə olunmuş arxeoloji materialları müqayisə etdikdə məlum olur ki, Naxçıvanın Erkən Tunc dövrü arxeoloji abidələrindən əldə olunmuş bu ocaq qurğuları təyinatına görə daimi və müvəqqəti ocaq qurğularından ibarətdir. Hər bir qrupa daxil olan ocaqların arasında bəzi fərqli xüsusiyyətlərin olması onunla bağlı olmuşdur ki, onların hamısı eyni sənətkar emalatxanasının məhsulu olmamış, ayr-ayrı dulusçular tərəfindən müxtəlif üsullarla düzəldilmişdir. Onların hamısından məişətdə istifadə etmək mümkün

olsa da, bəzilərindən dini ayinlərin icrasında istifadə edlmişdir. Daimi ocaqlar evlərin daxilində mərkəzdə, ya da evlərin divarlarına bitişik halda torpaqda qazılmış çalaların içərisində dördkünc və ya dairəvi formada düzəldilmiş, əsasən evlərin qızdırılmasında istifadə edilmişdir. Onların torpaqda düzəldilərək ətrafına qum yığılması, içərisinin suvanması istiliyin uzun müddət qalmasına imkan yaratmışdır. Digər keramika məmulatları kimi onların da hazırlanması prosesi bütün dulusçular üçün eyni olmuşdur. Yəni hər hansı bir ocaq qurğusu üçün dulusçular tərəfindən ilk öncə yararlı xammal seçilmiş, sonra onun istehsal üçün hazırlanması prosesi həyata keçirilmişdir. Evlərin daxilində qurulmuş daimi ocaqların düzəldilməsi texnologiyası müasir dövrün təndirləri və dulusçu sobaları ilə oxşarlıq təşkil etmişdir. Dulusçu ilk öncə xammalı hazırlamış, ocağı qoymaq üçün torpağı qazaraq kiçik çala düzəltmişdir. Sonra həmin çalanın ölçüsünə uyğun lentvari formalı palçıq kündələrini bir-birinin üzərinə qoyaraq əlləri ilə bərkitmişdir. Bu tip ocaqların daxili səthi bütünlüklə sığallanmış, xarici səthinin torpaqda qalan hissəsi kobud şəkildə saxlanmışdır. Mobil ocaqlar düzəldilən zaman bad və qəlib üsullarından istifadə edildiyini ehtimal etmək olar. Bad üsulu tətbiq edilərkən dulusçu daimi ocaqlarda olduğu kimi lentvari formalı palçıq kündələrini bir-birinin üzərinə qoyaraq ocağı düzəltmişdir. Bu zaman ocaq quruyarkən yerə yapışmasın deyə torpağın üzərinə saman səpilmışdır. Qəlib üsulu ilə ocağı düzəldərkən palçıq kündələrini xüsusi qəliblərə tökmüşlər. Azca bərkidikdən sonra qəlibdən çıxarıb tam qurumasını gözləmişlər. Onların üzərindəki oval və ya yarımşar formalı qulplar sonradan qoyulmuşdur. Bu qulplardan onları bir yerdən başqa yerə daşımaq üçün istifadə edilmişdir. Həm daimi, həm də mobil ocaqlar quruduqdan sonra bişirilmişdir. Çünki, digər keramika məmulatları kimi ocaqların da birdən-birə yüksək temperaturda bişirilməsi onların çatlamasına, qırılmasına səbəb olardı.

Ocaq qurğuları kimi minatür təkər modelləri də təsadüfən düzəldilməmiş, müəyyən məntiqi əsası olmuşdur. Ehtimal etmək olar ki, dünyanın müxtəlif bölgələrindəki arxeoloji abidələrdən aşkar olunmuş təkər və araba modelləri kimi onlar da "Araba mədəniyyəti" ilə bağlılıq təşkil edərək bu mədəniyyətin Naxçıvan diyarını da əhatə etdiyini sübut edir. Çünki, təkər birdən-birə, təsadüfən düzəldilməmişdir. Onun icad olunması prosesi müəyyən bir tarixi dövrü əhatə etmiş, tarixi zərurətdən yaranmışdır. Tunc dövründə təkərin icad olunması bəşəriyyət tarixinin ən böyük yeniliklərindən biri olmuşdur. Təkər icad olunana qədər insanlar ağır və böyük yükləri daşımaq üçün müxtəlif primitiv üsullardan istifadə etmişlər. Təkərin icad olunması təkərli nəqliyyat vasitəsi olan arabaların yaranmasına səbəb olmuşdur. Arabadan dünyanın bütün bölgələrində geniş istifadə edilmişdir. Onlar ikitəkərli və dördtəkərli olmuş, qoşqu qüvvəsi kimi atdan və öküzdən istifadə edilmişdir.

Arabalardan istifadə olunması tayfalararası iqtisadi-mədəni əlaqələrin genişlənməsinə mühüm təsir göstərmişdir.

Zoomorf fiqurlar əsasən öküz, at, it fiqurlarından ibarətdir. I Kültəpənin Erkən Tunc dövrü təbəqəsindən, Maxtadan (3, s. 65, 141; 8, s. 35) bu tip arxeoloji materiallar tapılmışdır. Onların çoxu öküz fiqurlarıdır. Bu fiqurların hər biri özünəməxsus xüsusiyyəti ilə fərqlənir. Onları birləşdirən ortaq əlamətlərdən biri fiqurların əksəriyyətinin ayaqlarının, bir qrupunun isə buynuzlarının qırılmasıdır. Tədqiqatçı O.H. Həbubullayevin fikrinə görə fiqurların qırılmasına səbəb onlardan ayrı-ayrı dini ayinlərin icra olunmasında istifadə edilməsidir (1, s. 142, 143). Gil heyvan fiqurlarının istifadə məqsədi, semantikası ilə bağlı tədqiqatçılar tərəfindən müxtəlif fərziyyələr deyilsə də, onların fikirlərini məntiqi cəhətdən birləşdirən əsas əlamət bütün fiqurlardan kult kimi istifadə edilməsidir. Yəni, bütün heyvan fiqurlarının düzəldilməsinin əsas səbəbi ayrı-ayrı heyvanların insanların təsərrüfat həyatında əhəmiyyətli yer tutmasıdır. İnsanların həyat tərzində bir qrup heyvanların mühüm yer tutması nəticəsində, onlarla bağlı "heyvan kultu" adlı dini inanclar sistemi mövcud olmuşdur.

Naxçıvanın Tunc dövrü dulusçuluq sənətinin maraqlı arxeoloji materialları içərisində gildən düzəldilmiş insan fiqurunu da qeyd etmək olar. Qızılburun abidəsindən tapılmış bu arxeoloji material Orta Tunc dövrünə aiddir. Qədim heykəl nümunələrimizdən olan bu fiqurda insanın üzü yastı, alnı bir az qabarıq, baş və bədən üzvləri çox mütənasib şəkildə, paltarlı, çəkməli və papaqlı verilmişdir. İnsanın sol əli kəmərinin üzərinə qoyulmuşdur. Fiqurun bədəni incə xətlərlə qara və qəhvəyi rənglə boyanmışdır. Bu fiqur Qədim Azərbaycan heykəltaraşlığının ən gözəl nümunəsidir. Hələlik, bu insan fiquru Cənubi Qafqazda yeganə sayılır. O, İrandan tapılan paltarlı insan fiquru ilə oxşarlıq təşkil etsə də, ondan daha qədim olmuşdur (6, s. 61-62). Bu fiqurda maraq doğuran əsas cəhət hər bir insana məxsus əlamətlərlə yanaşı qədim geyim mədəniyyətimizin bütün xüsusiyyətlərinin (başmaq, ar-xalıq) onda əks olunmasıdır. Bu fiqurun əcdadlar kultu ilə bağlı olduğunu, müəyyən dini ayinlərin icra olunmasında istifadə edildiyini qeyd etmək olar. Çünki, Tunc dövründə ana xaqanlığının (matriarxat) ata xaqanlığı (patriarxat) ilə əvəz olunması digər sahələr kimi insanların dini-ideoloji görüşlərinə də təsir göstərmişdir. Kişinin təsərrüfatda, tayfanın idarə olunmasında əsas yer tutması, nəticəsində bu tip fiqurlar məğrurluq, güc, qüvvət simvolu kimi qəbul edilmiş, Ana-İlahə (Qadın-İlahə), Ata-Allah (Kişi-Allah) ilə əvəz olunmuşdur. Həm Ana-İlahə (Qadın-İlahə), həm də Ata-Allah (Kişi-Allah) əcdadlar kultunun tərkib hissəsi olmuşdur.

Naxçıvanın Tunc dövrü dulusçuluq məmulatı içərisində gil qablar çoxluq təşkil edir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, gil qablardan həmin dövrdə insanların məişətində və təsərrüfat həyatında geniş istifadə edilmişdir.

Gil qabları məişət və təsərrüfat qabları olmaq üzrə iki qrupa bölmək olar. Təsərrüfat qabları məişət qabları ilə müqayisədə bir qədər qalın divarlı hazırlanmışdır. Qabların düzəldilməsi zamanı bir neçə texniki proses həyata keçirilmişdir. Aparılan araşdırmalar zamanı məlum olur ki, bütün dulusçuluq məhsullarının düzəldildiyi kimi qabların hazırlanmasında da ilk olaraq keyfiyyətli, istehsal üçün yararlı olan xammal seçilmişdir. Çünki, yüksək keyfiyyətli gildən hazırlanmış qablar daha yararlı və daha uzun ömürlü olmuşdur. Gildən yoğrulmuş qabları müəyyən formaya salarkən onların simmetriyasına xüsusi fikir verilmişdir. Qabı müəyyən formaya saldıqdan sonra bişirilmə prosesi zamanı çatlamaqdan qorumaq üçün xüsusi üsullardan istifadə etmişlər. İlk olaraq qabı əvvəlcə bir neçə gün kölgə yerdə, sonra isə günəş altında qoyub qurutmuşlar. Sonra qabın bişirilməsi prosesi həyata keçirilmişdir. Bişirilmə prosesində qabların müxtəlif rəng alması onların hazırlandığı gilin tərkibindəki dəmir birləşmələrindən asılı olmuşdur. Belə ki, dəmir birləşmələri alovun təsirindən müxtəlif rənglərə çevrilərək qabların boz, çəhrayı, qara və s. rəngli olmasına səbəb olmuşdur. Qabların üzərinin rənglənməsində boyaq bitkiləri və gilin tərkibindəki mineral maddələr mühüm yer tuturdu.

Qabların düzəldilməsi və bişirilməsi prosesindən sonra onların üzəri müəyyən ornamentlərlə naxışlanır. Qabların naxışları həndəsi, nəbati, antropomorf və zoomorf tiplidir. Həndəsi ornamentlər sadə və mürəkkəb quruluşludur. Sadə həndəsi ornamentlər içərisində dalğalı, düz və sınıq xətlər daha çox yayılmışdır. Mürəkkəb həndəsi ornamentlər dairə, romb dördbucaq və üçbucaqların kombinasiyasından ibarətdir. Qabların üzərinin naxışlanmasında basma, çızma, çərtmə və s üsullardan istifadə olunur. Dulusçuluqda da hər bir dövrün xarakterik xüsusiyyətləri özünü göstərir. Neolit və Eneolit dövründə gil qablar saman qarışığı olan gildən açıq çəhrayı, qırmızı bəzən isə boz rəngdə düzəldilmişdir. Tunc dövründən başlayaraq qabların hazırlandığı gilin tərkibinə iri və ya xırda qum dənələri qatılaraq onların keyfiyyəti daha da artırılmışdır. Erkən Tunc dövründə Eneolit dövrünün naxışlanma üsul və formaları qorunub saxlansa da, yeni naxış motivlərindən də istifadə olunmuşdur.

Erkən Tunc dövründə Naxçıvanda mövcud olmuş "Kür-Araz mədəniyyəti"nə aid gil qablar boz, qara və çəhrayı rənglidirlər. Onların bir qurupu cilalanmıştır. Onların hazırlandığı gilin tərkibinə iri və kiçik qum dənələri qatılmışdır. Naxçıvanın Erkən Tunc dövrü abidələrindən (I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta, Ərəbyengicə, Şortəpə) əldə olunmuş keramika məmulatları içərisində cilalı, çəhrayı astarlı qablar və yarımşar formalı qulplar özünəməxsus yer tutur. Bu dövrün keramika məhsullarının bir qismində bəzi qabların səthində ləkələrin qalması onların yaxşı bişirilməməsi ilə bağlı olmuşdur. Nazik divarlı, yaxşı cilalanmış qabların düzəldilməsi bu dövdə

qabların bişirilmə texnikasındakı inkişafla bağlıdır. Erkən Tunc dövrünə aid gil qabların xarakterik xüsusiyyətlərindən biri də onların ağız kənarının düzbucaqlı şəkildə xaricə çıxması, qabların ağızlarının bir qədər içəri yığılması və simmetrik olmasıdır. Bu dövrə aid qabların bəzilərinin ağız kənarlarının rels şəklində qalın düzəldilməsi Şərqi Anadolunun keramika məmulatları üçün səciyyəvidir.

Erkən Tunc dövründə Naxçıvanda dulusçular tərəfindən qabların naxışlanmasında oval və ya dairəvi naxışlardan, ziqzaq, "S", "L", "M", "Y" formalı işarələrdən istifadə edilmişdir. I Kültəpə, II Kültəpə, I Maxta və digər arxeoloji abidələrdən əldə olunmuş, üzəri oval və ya dairəvi ornamentlərlə bəzədilmiş gil qabların bənzərləri dünyanın bir çox yerlərindən, o cümlədən, Cənubi Azərbaycanda Göytəpə abidəsindən tapılmışdır (4, s. 50), (1, s. 127). II Kültəpə (2, s. 123) yaşayış yerlərindən əldə olunmuş üzəri zıqzaq ornamentlərlə naxışlanmış gil qablar Cənubi Qafqazın (14, s. 166), Ön Asiyanın (15, s. 852) həmdövr arxeoloji abidələrindən əldə edilmiş bir qrup qablarla bənzərlik təşkil edir. I Maxta yaşayış yerindən tapılmış qabların bir çoxunun üzəri Naxçıvanın digər Erkən Tunc dövrü abidələrindən tapılan keramikalarda olduğu kimi cızma naxışlarla bəzədilmişdir (17, s. 111). I Kültəpə (1, s. 133) və s. abidələrdən tapılmış "M" formalı naxışlı gil qabların bənzərləri, Babadərviş, Amiranisqora (14, s. 68, 89) abidələrində aşkar olunmuşdur. Ovçulartəpəsi, I Maxta, Xələc, Ərəbyengicə yaşayış yerlərində əldə edilmiş Proto Kür-Araz keramikası bu mədəniyyətin Naxçıvanda formalaşdığını söyləməyə əsas verir.

Orta Tunc dövrünün qabları gilinin rənginə, formasına və naxışlanma texnikasına görə bir-birindən fərqli iki əsas qrupa ayrılırlar.

Birinci qrupa çəhrayı rəngdə bişirilmiş boyalı qablar daxildir. Bu cür gil qabların istehsalı və yayılması Azərbaycan arxeologiyasında "Boyalı qablar mədəniyyəti" adı ilə tanınır. Orta Tunc dövründə bu mədəniyyətin əsas mərkəzi Naxçıvan olmuşdur. "Boyalı qablar mədəniyyəti" Naxçıvanla yanaşı Urmiya hövzəsi və Şərqi Anadolunu da əhatə etmişdir. Azərbaycanın digər bölgələrində boyalı qablar Naxçıvandakı arxeoloji abidələrlə müqayisədə nisbətən az aşkar edilmişdir. Naxçıvandakı Orta Tunc dövrünə aid arxeoloji abidələrdən bir qurupunun (Şahtaxtı, Qızılburun və s.), xüsusilə də II Kültəpənin stratigrafiyasına görə "Boyalı qablar mədəniyyəti" dörd dövrə ayrılmışdır (7, s. 46-89). Bu mədəniyyətin ilk dövrü üçün monoxrom - yəni bir rəngli boyalı qablar xarakterik olsa da, sonrakı dövrlərdə polixrom (çox rəngli) boyalı qablar geniş yayılmışdır. Monoxrom (bir rəngli) boyalı qablarda qırmızı rəngin üzərinə qara rənglə düz və dalğalı xətlərdən ibarət müxtəlif naxışlar çəkilmişdir. Naxışlar içərisində sadə kompozisiyalar nisbətən çoxluq təşkil edir. Polixrom (çox rəngli) boyalı qabların üzəri bir qədər yaxşı bəzədilmişdir. Onların üzərində sadə kompozisiyalı naxışlarla yanaşı, mürək-

kəb kompazisiyalı ornamentlərdən də istifadə edilmişdir. Naxışlar qabların gövdəsinin üzərinə narıncı-sarı və ağ fon üzərinə daha çox qara, qırmızı, bəzən isə qəhvəyi, ağ və yaşıl rənglə çəkilmişdir. Qabların üzərinin bəzədilməsində dalğalı, qırıq xətlərdən, üçbucaqlardan başqa, üçbucaqlar arasına çəkilən kiçik dairələrdən, insan, quş və heyvan təsvirlərindən də istifadə edilmişdir. Geniş yayılmış naxışlanma formalarından biri də qara rəngli perpendikulyar xətlərin arasında çəkilən torlu üçbucaqlardır. I Kültəpə, II Kültəpə, Şahtaxtı, Nəhəcir, Yaycı, Çalxanqala abidələrdən tapılmış bu tip polixrom boyalı qabların bir qrupu Göytəpənin D və C (5, s. 21), Haftavantəpənin V, VI (6, s. 189), Dingətəpənin IV (13, s. 126) təbəqəsindən əldə edilən qablarla bənzərlik təşkil edir.

Naxçıvanın Orta Tunc dövrü keramikasının ikinci qrupu boyasız qablardır. Bu qablarda Erkən Tunc dövrü keramikasının ənənələri inkişaf etdirilmişdir. Onlar cilalanmış, üzərinə cızma, çərmə üsulu ilə müxtəlif həndəsi naxışlar çəkilmişdir. Nəhəcir (16, s. 68), II Kültəpə (2, s. 53) və s. arxeoloji abidələrdən bu tip qablar tapılmışdır. II Kültəpə yaşayış yerində bu tip qabların bir çoxunun dulus sobasından tapılması onların yerli dulusçular tərəfindən hazırlandığını göstərir. Azərbaycan ərazisində bu tip qabların yayıldığı bölgələr Mil-Qarabağ, Talış-Muğan, Qobustan və ölkənin şimal-şərq hissəsidir.

Son Tunc dövründə də qabların naxışlanmasında istifadə olunmuş həndəsi ornamentlər sadə və mürəkkəb olmaqla iki əsas qrupa bölünmüşdür. Sadə həndəsi ornamentlər içərisində dalğalı, düz və sınıq xətlər daha çox yayılmışdır. Mürəkkəb həndəsi ornamentlər dairə, romb, bucaq, üçbucaq və s. rəsmlərin qarışıq verilməsindən ibarətdir. Bundan başqa basma, cızma, çərtmə, konnelyur, zoomorf ornamentlərdən, "S", "T", "M", "Y" formalı naxışlardan, şiş yapma və dairəvi batıqlardan da istifadə olunmuşdur. Boyalı qablar monoxrom və polixrom rəngli olmaqla bir-birindən fərqlənmişlər. Son Tunc dövrünə aid qablar əsasən polixrom (çox rəngli) rəngli olmuşdur. Onların rənglənməsində qırmızı, qara, sarı və başqa rənglərdən istifadə edilmişdir. Naxçıvan boyalı qabları Cənubi Qafqaz, Şərqi Anadolu və Urmiya hövzəsinin keramikası ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənmişdir. Yuvarlaq qabartmalar və konnelyur ornamentlər Xocalı-Gədəbəy mədəniyyətində geniş yayılmışdı. Ağ inkrustasiyalı qablar çox az (I Kültəpə və Qazxan abidələrindən tapılıb) aşkar edilmişdir. Bunun başlıca səbəbi Naxçıvanda bu tip keramikanın az istehsal olunmasıdır. Mərkəzi Avropa və Kiçik Asiyadan Çinə qədər geniş bir ərazidə yayılmış ağ inkrustasiyalı keramikanın istehsalı Azərbaycanda Xocalı-Gədəbəy mədəniyyəti dövründə yayılmışdı.

Dulus çarxından istifadə edilməsi nəticəsində əmək məhsuldarlığı yüksəlmişdir. İlk dulus çarxı əl ilə hərəkətə gətirilmişdir. O qısa ox üzərində

qurulmuşdur. Dulusçu əli ilə çarxı hərəkət etdirdikdən sonra onun dayanmasına qədər iki əli ilə qabı müəyyən formaya salmışdır. Son Tunc dövründə mükəmməl quruluşlu, ayaqla hərəkətə gətirilən dulus çarxının tətbiqi ilə qabların istehsalı yüksək inkişaf səviyyəsinə çatmışdır. Naxçıvan Muxtar Respublikasının ərazisindəki arxeoloji abidələrdən bununla bağlı xeyli arxeoloji material aşkar olunmuşdur. I Kültəpə abidəsində Erkən Tunc dövrünə aid iki dulusçu kürəsi qeydə alınmışdır. Onlar abidənin üçüncü və beşinci tikinti qatlarında aşkar edilmişdi (1, s. 87-88; 17, s. 23; 18, s. 22). Erkən Tunc dövrünə aid II Kültəpə yaşayış yerinin yeddinci və onbirinci tikinti qatlarında da dulus kürələrinin qalıqları aşkar olunmuşdur. Onlar odadavamlı gildən dördkünc formada tikilmişdir (17, s. 24-25: 18, s. 39-40, 47). Abidədə həm əvvəlki dövrlərdə (1968-1975-ci illərdə) (7, s. 26-28; 2, s. 32-34), həm də son zamanlarda (9, s. 126-130; 10, s. 126-135; 11, s. 115-125, 12, s. 161-168) aparılan arxeoloji tədqiqatlar zamanı kürə ilə yanaşı dulusçu emalatxanasının qalıqları da aşkar edilmişdir. Bu fakt Orta Tunc dövründə Naxçıvanın Cənubi Qafqazda əsas dulusçuluq mərkəzlərindən biri olduğunu söyləməyə əsas verir.

Yekun olaraq onu qeyd etmək olar ki, Tunc dövründə Naxçıvanda dulusçuluq ən mühüm sənətkarlıq sahəsi olmuşdur. Bu dövrdə keramika məmulatlarının çeşidləri çox, keyfiyyəti yaxşı olmuşdur. Hər bir keramika mə-mulatı təsadüfən düzəldilməmiş, müəyyən məqsədlərlə istifadə edilmişdir. Onların hamısı eyni olmamış, forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənmişdir. Keramika məmulatlarının üzərindəki ornamentlər onlara müəyyən gözəllik verməklə yanaşı insanların dini-ideoloji görüşləri, düşüncə tərzi, bədii-estetik zövqü, həyat tərzi ilə bağlılıq təşkil etmişdir. Onların bir qrupunun yerli, bəzilərinin digər mədəniyyətlərlə oxşar xüsusiyyəti olmuşdur.

## Ədəbıyyat


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР, Баку: Элм, 1982, 314 с.
2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана, Баку, Элм, 1991, 256 с.
3. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Elm, 2002, 158 s.
4. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
5. Brown T.B. Excavations in Turkey, 1948. Jon Murray Albemarle Street, w.XIX, London,, p. 21-22.
6. Edwards M.R. The Pottery of Havtavan Tepe VI B (Urmia Ware), İran, w. KIK, 1981, s. 101-140
7. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 163 s.
8. Əliyev V.H., Aşurov S.H. Maxta Tunc dövrü abidələri // Azerbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, Elm, 1992, s. 33-36.
9. Əliyev V.H., Məmmədov A.Ə., II Kültəpədə yeni tədqiqatlar (2010-cu il) // Azərbaycanda arxeoloji tədqiqatlar- 2010, Bakı. 2011, 126-135.
10. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar (2010) // Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı: Xəzər Universiteti, 2011, s. 126-135.
11. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar-2011. Bakı: Xəzər Universiteti, 2012, s. 115-125.
12. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində yeni tapıntılar (2013-2014-cü illər) // Azərbaycanda arxeoloji tədqiqatlar-2013-2014. Bakı: Xəzər Universiteti, 2015, s. 161-168.
13. Hamilin C. The early Second Millennium carbon assemble age of Dinka Tepe. Iran, 1977, p. 125-153.
14. Кушнарева К.Х., Чубиншвили Т.Н. Древние кутьтуры Южного Кавказа. Ленинград, 1970, 191 с.
15. Sevin, V., Özfırat, A., Kavaklı, E. Van-Karagündüz Höyüğü Kazıları (1997 Yılı Çalışmaları), Belleten LKIII/238, 2000, s. 847-882.
16. Seyidov A.Q., Baxşəliyev V.B. Nəhəcirdə arxeoloji araştırmalar. Bakı, İqtisad Unversiteti, 2002, 201 s.
17. Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.
18. Сеидов А.Г. Раннебронзовая культура Нахчывана. Воронеж: Воронежский государственний технический университет, 2002, 199 с.

## Summary

## Pottery of the bronze age in Nakhchivan

### Togrul Khalilov

The article studies of pottery in IV-I millenniums B.C. It defined the pottery wasone of the ancient craftsmanship areas in Nakhichivan. At that time Nakhichivan, as well as the other regions of Azerbaijan, was an important centre of craftsmanship. During the research conducted during the Bronze Age, Nakhchivan stated that the art of ceramics became a specialized production area. Each of the patterns is a commitment to ceramists' workmanship habits and religious-ideological views. The patterns are simple and compound. They have both local characteristics and similarities with other cultures. The patterns were used to decorate the territory covering more protourkish culture is widespread. In the meantime, the distribution of ornaments prototurk civilization used in this region prove that this region is a land of Turkey.


**Key Words:** Nakhchivan, Early Bronze Age, the Bronze Age, pottery.

## Резюме

## Гончарное ремесло Нахчывана в эпохе бронзы

**Тогрул Халилов**

В статье освещены некоторые аспекты гончарного ремесла Нахчывана в IV-I тыс. до н. э. В этот период в Азербайджане, в том числе в Нахчыване сильно развивалось гончарное ремесло. В изготовлении керамических изделий использовались разные способы. Особый толчок развитию гончарство дало изобретение гончарного круга.

На керамике встречаются разные орнаменты, среди которых преобладают треугольники, ромбы, параллельные и волнообразные линии. Орнаменты на керамике отображают социально-экономические и религиозные взгляды древних племен.

Среди керамических изделий привлекают особое внимание мобильные очажные устройства. Они украшались рогообразными выступами, овальными ручками и имели, в основном круглые и подковообразные формы. Мобильные очаги имели культовые и хозяйственные назначения.

В итоге можно сказать, что в эпохе бронзы производства керамических изделий развивалось интенсивно, появились новые формы, значительно улучшилось качество изделий.

**Ключевые слова:** Нахчыван, Ранний Бронзовый век, Средний Бронзовый век, гончарство.